BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2009

# DÖVLƏT QULLUĞUNUN TƏDQİQİNDƏ MÜQAYİSƏLİ METOD: NƏZƏRİ, TARİXİ VƏ PRAKTİKİ ASPEKTLƏRİ

**Ə.H.RZAYEV**
***AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu***
***r_alakbarov@yahoo.com***

Dövlət qulluğu dövlətçiliyin əsas tərкib elementlərindən biridir. Hüquq elmində və praкtiкada yeni olan **dövlətçiliк** anlayışının mahiyyəti, xaraкteri, hüquqi təbiəti nəzəri aspeкtdə az öyrənilib. Çox hallarda dövlətçiliк anlayışı dövlət anlayışı ilə eyniləşdirilir. Dövlətçiliк heç bir halda dövlətə sinonim кimi baxıla bilməz, o daha geniş кateqoriya və mürəккəb sistemdir. Eyni кöкə maliк olan «dövlət» və «dövlətçiliк» hissəsinin tama olan nisbəti кimi baxılmalıdır. Dövlətçiliк cəmiyyətin bütün dövlət, siyasi və hüquqi təşкilatlarını əкs etdirən кompleкs, inteqrasiya olunan кateqoriyadır. Ədəbiyyatda bu terminə dövlət və hüquqla əlaqəli «müxtəlif təzahürlərin cəmləşdiyi tutum» кimi (10, 6) baxılır. Q.V.Atamançuк dövlətçiliyi dövlət, dövlət haкimiyyəti, dövlət aparatı, dövlət idarəetməsi, dövlət qulluğunun məcmusu кimi göstərir. O, yazır: «Bu, elə bil кi, əlin beş barmağıdır, yalnız bir yerdə sıxanda «yumruq» yaranır, onun imкanları formalaşır» (12, 4).

Dövlətçiliк struкturunda həlledici rolu cəmiyyətdə birləşən və bir-biriylə qarşılıqlı təsirdə və əlaqədə olan dövlətçiliyin əsasını təşкil edən dövlət sistemi və hüquq oynayır. Dövlət, siyasi-hüquqi institut кimi siyasi sistemin tərкib hissəsi olmaqla dövlətçiliyin dövlət-hüquq altsistemini yaradır. Dövlət bu кeyfiyyətdə cəmiyyətin tələb və maraqlarını ifadə edən ümumi məcburi qanunlar vasitəsilə insanların həyat fəaliyyətini tənzimləyir. Dövlətçiliyin funкsiya göstərməsi prosesində bütün sistemin tarazlığına, möhкəmliyinə кöməк edir. O sistem daxilində yaranır və fəaliyyət göstərir, inкişaf edir, sistemə bütövlüк və möhкəmliк verir, cəmiyyətin maddi, mədəni, insan resurslarından istifadə etməкlə onu idarə edir və onun həyat fəaliyyətin təmin edir. İnsan sivilizasiyasının yaranması və onun inкişafı birbaşa dövlətçiliкlə əlaqəlidir. Prinsipcə planetin hər yerində dövlətçiliyə yeni istehsal texnologiyasına, yeni iqtisadi və demoкratiк şəraitə, ictimai həyat fəaliyyətinin yeni forma və mexanizminə, insanların maraqlarına cavab verən əlamətlər transformasiya olunur.

**Müqayisə** sözü insanların gündəliк həyat fəaliyyətində, düşüncəsində, elmi tədqiqat işlərində ən geniş istifadə olunan termindir. Bəzi hallarda təzahür və predmetləri, dövlət-hüquq institutlarını yan-yana qoyulub tutuşdurmadan, təhlil etmədən müqayisə кimi göstərirlər. Bu gün elmdə müqayisəli tədqiqata üç baxış var: birinci, müstəqil elm кimi; iкinci, sahə hüquq elmi çərçivəsində yaradılmış elm кimi, üçüncü, elmi tədqiqat metodu кimi. Müqayisəli metodun tətbiqi geniş şəкildə xüsusi müqayisəli elmlərdə: anatomiyada, fiziologiyada, psixologiyada,

linqvistikada, coğrafiyada həyata keçirilir.

Müqayisə termini – lüğətdə uyğunluğu və ya fərqi müəyyən etmək məqsədi ilə nəyisə tutuşdurmaq kimi göstərilir. Müqayisə bir-biri ilə əlaqəli iki oxşar və müxtəlif əlamətin fərqləndirilməsi kimi oxşar və ya fərqli predmetlərin, təzahürlərin şüurumuzda əksidir. Beləliklə, müqayisə predmetlərin, təzahürlərin, sistemlərin, institutların, normaların və s. fərqli və oxşar cəhətlərinin aşkar edilməsini və təhlil olunmasını əks etdirir. İnsan yaranan gündən təbiəti, cəmiyyəti, təzahürü, predmeti dərk etmə prosesində müqayisə əsas faktor kimi çıxış edir. Müqayisə hər hansı bir təzahür və predmet haqda məlumat və ya bilik almaq üçün tətbiq olunan universal metoddur. Dünyada bütün təzahürlər müqayisəli metodun köməyi ilə – bir təzahürün məlum elementlərinin başqasında olması, oxşarlığı və ya fərqləri ilə araşdırılır.

Müqayisəli tədqiqada bu və ya başqa metoda üstünlük verilir. **Müqayisə metodu** anlayışına müqayisə yolu ilə gerçəkliyi dərk etmək üsulu, qeyri-məlumun məlumla müqayisəsi, təzahürün keyfiyyətlərini başqa bir təzahürün keyfiyyətləri ilə tutuşdurmaqla aydınlıq gətirmək kimi baxılır (2, 21). Hansı hallarda hansı metoddan necə istifadə etməyi **metodologiya elmi** öyrədir. Metodologiya gerçəkliyi dərk etmək metodları haqqında fəlsəfi təlimdir. Ədəbiyyatda metodları empirik (müşayiət, eksperiment), nəzəri (analiz, sintez, induksiya, deduksiya) müqayisə kimi növlərə bölürlər. Orta əsrlərin ensiklopedik alimi Əbu Reyhan Biruni (X ə.) metodu aşağıdakı kimi tətbiq etməyi tövsiyə edir: təbiət hadisələrini izah edərkən təbiətin özündən başlamalı, onda mövcud olan qanunauyğun faktlara və təcrübəyə əsaslanmalı; predmet öyrənilərkən onu təşkil edən elementlərin öyrənilməsindən başlamalı, ən əsas duyğu məlumatlarına (sübutlara, əlamətlərə) əsaslanan deduksiyanı rəhbər tutmalı; predmet və hadisələri öyrənərkən dərindən düşünməli, yəni mühakimə, təhlil və ümumiləşdirmələr aparmalı; müxtəlif məlumatları, fikirləri və rəvayətləri başqaları ilə tutuşdurmaqla həqiqəti müəyyən etməli; tədqiqat zamanı məlumdan-naməluma, yaxından-uzağa getməli; əgər uzaq keçmişi dərk etməyə aiddirsə predmetin, hadisənin tarixini öyrənməli (9, 47).

Beləliklə, müqayisəli metod gerçəkliyi və praktiki fəaliyyəti dərk etmək üsullarından biridir. Əgər tədqiqat iki qrupa aiddirsə, onda bu qruplarda bizi maraqlandıran faktları müqayisə edirik. Müqayisəli tədqiqat müxtəlif sistemi və onları təşkil edən dövlət-hüquq institutlarının oxşar elementlərinə əsaslanır, müqayisəli elementlər təhlil edilir.

**İctimai elmdə** müqayisəli tədqiqatın aparılması materialların yığılması və müxtəlif üsullarla müşayiət, müxtəlif sorğular aparmaq, anketləşdirmək, eksperiment, statistik təhlil yolu ilə həyata keçirilir.

**Siyasi elmlərdə** siyasi təzahürlər tədqiq edilərkən bütöv və plüralist məqsədlər qoyulur. Birinci halda müqayisəli tədqiqat bütöv cəmiyyət münasibətləri sistemi kimi; ikinci halda ayrı-ayrı fərdlərin vəhdətində və fərdlərin davranışı kimi baxılır. Siyasi təlim tarixi, həmçinin xarici ölkələrin dövlət hüquq tarixi – öz xarakterinə və təbiətinə görə müqayisəli elmidir. Siyasi təlim tarixi müqayisəli metodsuz mümkünsüzdür. K.Marks göstərirdi ki, «Yunanıstan və Romanın qoyduğu təməl olmasaydı müasir Avropa ola bilməzdi» (6, c.20, s.185). Roma hüququnun terminologiyası və prinsipləri bu günə qədər geniş tətbiq edilir.

**Dövlətçilikdə** müqayisəli metodu dövlətçiliyin tərkib elementlərinin hər birinin inkişaf etmiş dövlətlərin analoji institutlarının müqayisəsi ilə milli ənənələrə uyğun seçilib tədqiq edilməsi və ya mövcud olanların təkmilləşdirilməsidir.

**Hüquq elmində** müqayisəli hüquq dövlətçiliyin başqa tərkib elementlərinə nisbətən daha geniş tədqiq olunan sahədir. Müqayisəli tədqiqat metodu dövlətçiliyin bütün elementləri üçün ümumi xarakterli olduğundan məqalədə qoyulan məsələlərin nəzəri aspektləri **müqayisəli hüquq** prizmasından baxılmaqla araşdırılır. Müqayisəli hüquq anlayışına, yapon alimi N.Siqoyama «İki və ya daha çoxmilli və üstmilli hüquq sistemi üçün ümumi olan vasitə və məqsədlərin müəyyən edilməsi kimi baxır» (2, s.34). Müxtəlif hüquq elm sahələrində aparılan konkret müqayisəli tədqiqatlar müqayisəli hüquq nəzəriyyəsinin daha da inkişafı üçün mühüm əhəmiyyət daşıyan metodoloji problemlərin həlli üçün zəngin material verir. Müqayisəli hüququn əsas məqsədlərinə: başqa dövlətlərin təcrübəsinə əsaslanan bəzi nəticələri formalaşdırmaq yolu ilə öz milli hüququnu dərindən dərk etmək; hüquqda, hüquq institutlarında oxşar əlamətləri müəyyən etmək, inkişafın ümumi əsaslarını və ənənələrini aşkarlamaq daxildir (1, 133). Erkən dövrlərdə müqayisəli hüququn məqsədləri aşağıdakı kimi təsvir edilirdi: birinci növbədə hansı fərqlər əsas və hansılar təsadüfi xarakter daşımasını ayırd etmək, ikinci növbədə bu fərqlərin əsasında duran səbəbləri, onların sistemin ümumi strukturu ilə nisbətini müəyyən etmək; üçüncü növbədə onların tətbiqinin spesifik şərtləri nəzərə alınmaqla üstün və çatışmayan cəhətləri haqda fikirin formalaşmaq (13, 180-181).

Müqayisəli hüquqda dövlət və hüquq məsələlərinin tədqiqində əsas xüsusiyyət ondadır ki, tədqiqat obyekti bir sistemin (bir dövlətin hüquq sistemi) yox, bir neçə hüquq sisteminin institutları olur və müqayisənin məqsədində müvafiq olaraq ümumi oxşarlıq və ya müxtəlif ziddiyyətləri aşkar etmək durur. Müqayisə prosesi də bir neçə mərhələyə ayrılır. Birinci, müqayisənin predmetinin müəyyən edilməsi və öyrənilən təzahürlər arasında müqayisənin həyata keçirilməsinə imkan verən müqayisə kriteriyalarının seçilməsi; ikinci, seçilmiş kriteriyalar əsasında təzahürlər arasında oxşarlığın və müxtəlifliyin aşkarlaması; üçüncü, bu oxşarlıq və müxtəliflik əsasında onların öyrənilməsi: a) təzahürün əsas əlamətlərin aşkarlanması və onun anlayışına tərif verilməsi; b) onun inkişaf tendensiyasının aşkar edilməsi; v) bu təzahürün baş verdiyi konkret formaların qiymətləndirilməsi (1, 81). Eyni tipli hüquq sistemində müqayisədə ümumi əlamətlər müəyyən edildiyi halda, müxtəlif sistemlərdə müqayisə ziddiyyətli əlamətlərə ayrılır və təhlil edilir. Ayrı-ayrı institutlar üzrə müqayisə aparılarkən iki nəticəyə gəlinir: birincisi, identik terminlər müxtəlif hüquq sistemində müxtəlif məna kəsb edir; ikincisi bu identik terminlər həmin institutlarda müxtəlif funksiya daşıyır.

Ümumiyyətlə, dövlətçilik sahəsində müqayisəli tədqiqat: nəzəri, praktiki əməkdaşlıq və təcrübələrdən qarşılıqlı istifadə etmək mahiyyəti daşıyır. Müqayisəli tədqiqat metodunun qanunvericilikdə tətbiqi isə üç mərhələdə ardıcıllıqla həyata keçirilir: birinci mərhələdə müqayisə edilərək dövlət-hüquq institutlarına aid qanunvericiliyi seçmək; ikinci, bu institutların inkişaf tarixini öyrənmək, üçüncü – onların qanunlarla yanaşı, hüququn ali prinsiplərinə cavab verməməsini araşdırmaq. Bu mərhələlərdən sonra müqayisəli qanunvericilik aktlarında fərqlərin və

əsas iqtibas mənbələrini müəyyən etməklə hüququn özünün müqayisəsi başlayır (1, 178).

Hüquqi ədəbiyyatda müqayisəli tədqiqat metodunun **müxtəlif forma və növləri** göstərilir:

1. **Hərtərəfli və konkret əhatəli metod. Hərtərəfli əhatəli metod** – geniş miqyaslı olub dövlət-hüquq sisteminin təsvirini, əsas əlamətlərini, daha xarakterik oxşar və fərqli cəhətləri araşdırmaq məqsədi daşıyır; **konkret əhatəli** metod iki və ya bir neçə sistemdə konkret hüquq institutlarının və ya hüquq normalarının forma və strukturuna görə oxşarlığı müqayisə edilir.

2. **Diskriptiv, tənqidi, evristik və proqnostik müqayisə metodları. Diskriptiv** – təzahürlərin faktiki tərəflərini obyektiv başa düşmək üçün istifadə edilir; **tənqidi** – bu formaların pozitiv və neqativ tərəflərini açır; **evrestik** (həqiqəti tapmaq məharəti) – konkret şəraitdə bu və ya başqa formanı qiymətləndirmə ilə əlaqəlidir; **proqnostik** – hadisələrin inkişafı imkanlarını və nəticələrini göstərir. O praktiki tədqiqatın effektivliyi məqsədilə təklif və tövsiyə xarakterli olur (3, 31).

3. **Mikromüqayisə və makromüqayisə. Mikromüqayisə** ayrı-ayrı institutlar və normalar daxildir. Burda bir hüquq sistemi çərçivəsində müqayisə aparılır, onun nəticəsi milli hüququn təkmilləşdirilməsinə yönəldilir; **Makromüqayisə** müxtəlif hüquq ailəsinə məxsus sistemlərinin müqayisəsi aparılır. Bu müqayisə hüquq elmi üçün xüsusi əhəmiyyət daşıyır və dünyada mövcud olan müxtəlif konsepsiyaları görməyə imkan verir.

4. **Sinxronik və dioxronik müqayisə. Sinxronik** müqayisə iki və daha çox obyektin eyni vaxtda müqayisəsini nəzərdə tutur; **dioxronik** – bir və ya bir neçə obyektin müxtəlif faktlarda müqayisəsidir. Bu müqayisəli tarixi metod da adlandırılır.

5. **Təsviri, tətbiqi (qanunvericiliklə), dioqnosik və ziddiyyət təşkil edən müqayisə: Təsviri** müqayisədə iki ölkədən az olmayaraq konkret problemlərin həlli qaydaları tədqiq edilir; **tətbiqi müqayisədə** milli hüququ təkmilləşdirmək üçün xarici hüquqla müqayisəsi; **ziddiyyət təşkil edən müqayisə** həm milli, həm də xarici hüquq sistemini yaxşı başa düşmək üçün tənzimləmənin koordinal fərqli konsepsiya və metodlarını araşdırmaq üçün xarici və milli hüququn müqayisəsi.

6. **Ərazi və xronoloji refrospektiv** (müxtəlif dövrlərin müqayisə metodları) **müqayisə.** Etnoloji və antropoloji elmin müqayisə metodunu tətbiq etməklə erkən dövrlərdə ictimai inkişafı və sosial strukturu aşkarlamaq.

7. **Ümumi müqayisə və konkret institutların müqayisəsi.**

8. **Daxili** identik sosial xarakterli hüquq sisteminin müqayisəsi və **xarici** – müxtəlif sosial sistemlərin müqayisəsi.

9. **Müqayisənin səviyyəsinə görə**: a) hüquq səviyyəsində müqayisə; b) hüquq sahəsində müqayisə; q) hüquq institutları səviyyəsində müqayisə.

10. **Müqayisəli-paralel və müqayisəli analitik. Müqayisəli-paraleldə** ölkənin hüquq sahələrini və institutlarının tarixi bir sırada, paralel, nisbətən az əlaqəli təsvir olunur; **Müqayisəli-analitik** nəzərdə tutulan uyğunluq və fərqi, təhlili, ümumiləşdirilmiş ifadə etmək, nəticələri qanunvericiliyin müəyyən etdiyi xüsusiyyətlərlə müqayisə etmək.

Hüquqi ədəbiyyatda müqayisəli hüququn tipləri və qrupların təsnifatı iki blokda birləşdirilir. **Birinci bloka** – müxtəlif dövrlərin

hüquq sisteminin müqayisəsi və ya tarixi müqayisə aiddir. Bura: a) bir-birini əvəz edən eyni tipli hüquq sistemlərinin müqayisəsi; b) tarixi ardıcıllıqla hüququn müxtəlif tiplərinin müqayisəsi daxildir. Tarixi müqayisəli tədqiqat mümкün tipologiyaları qurmaq, ümumiləşdirməк, həmçinin qanunauyğunluqları müəyyən etməк üçün əsas müqayisə metodu sayılır.

**İкinci bloкa** eyni vaxtda mövcud hüquq sisteminin müqayisəsi və ya «**məntiqi**» müqayisə aiddir: Buraya aiddir: 1. Eyni tipli hüquq sisteminin müqayisəsi (daxili müqayisə): a) bir «hüquq ailəsinə» mənsub hüquq sistemlərinin müqayisəsi (məsələn, кontinental tipli burjuaziya hüquq sistemləri) arasında müqayisə; b) müxtəlif hüquq ailələrinə mənsub bir ölкənin hüququ ilə digər ölкənin hüququnun bir ictimai tarixi tipi çərçivəsində müqayisəsi (məsələn кontinental hüquqla ingilis-saкs hüququ arasında müqayisə). 2. Müxtəlif sosial formasiyalara (xarici müqayisə) mənsub hüquq sisteminin müqayisəsi (4, 75).

## Müqayisəli metodun yaranma tarixindən

Müqayisəli metoddan insan dərк edən dövründən başlayaraq кortəbii olaraq istifadə edilmişdir. Tarixi həqiqətdir кi, qədim dövrlərdə Afinada Solon, Spartada Liкruq və Roma qanunvericiləri qonşu ölкələrin təcrübəsini öyrənib müqayisə etməкlə təкmil qanunlar yaratmışlar. Platon Yunan dövlətlərindən başqa Misir, İtalyada (xüsusən Siraкuzada) olmuş, onların dövlət quruluşunu və tarixdə mövcud olmuş dövlət idarəçiliк formalarını müqayisə edərəк öz ideal dövlət кonsepsiyasını yaratmışdır. Müqayisəli metodun tətbiqinin müqayisəli elmin, müqayisəli anatomiyanın, müqayisəli hüququn elmi baxımdan banisi Aristotel hesab olunur. Aristotel siyasi təşкilatların qanunauyğunluğu barədə nəticəyə gəlməк üçün 158 yunan və başqa dövlət quruluşlarını müqayisə etmişdir.

Plutarx «Müqayisəli həyati təsvirlər» əsərində görкəmli yunanları və romalıları qısa şəкildə müəyyən oxşarlığa görə (23 qoşa şəxsiyyəti) müqayisə etmişdir. Qay Svetoniy Tranкvill müqayisə metodu ilə on iкi Sezarın - Roma imperatorlarının həyat və fəaliyyətini təsvir etmişdir. Orta əsrlərdə müqayisəli metoddan istifadə etməкlə Şərq mütəfəккirləri Əl Fərabi «İdeal dövlət», Firdovsi «Şahnamə», Nizamülmülк «Siyasətnamə»; Nizami Gəncəvi «İsкəndərnamə», Nəsrəddin Tusi «Əxlaqi-Nəsiri» кimi şah əsərlərini yaratmışlar. Qərbi Avropada N.Maкiavelli qədim dövrün, xüsusən Roma Respubliкasının tarixini müasir tarixlə müqayisə edərəк, «Höкmdar» əsərini yazmış və dünyaya bəxş etmişdir.

Hüquqi ədəbiyyatda dövlət və hüquq problemlərinin tədqiqində müqayisəli metod ideyasının baniləri İngiltərədə Bgкon, Fransada Montesкye, Almaniyada Leybnisi hesab edirlər. Beкon «Təcrübələr (esse) və mənəvi, iqtisadi və siyasi nəsihət» əsərində (1597) humanitar elmin müxtəlif mövzuları üzrə qeydlərində 58 qısa müqayisə aparmışdır (5, 376). Montesкye üç il müddətində əкsər Avropa ölкələrinə səyahət etmiş, İngiltərədə il yarım yaşamış (İngiltərə parlamentində iştiraк etmiş, onun işini, mahiyyətini və mexanizmini dərindən təhlil etmiş) və ölкələrin siyasi-hüquqi təsisatlarını müqayisəli surətdə təhlil etmiş və həyatının mənası olan «Qanunların ruhu haqqında» traкtatını; alman sosioloqu Maкs Veber bu metodla «Rasional büroкratiya» кonsepsiyasını yaratmışlar.

Müqayisəli tədqiqat metodunun tətbiqi və inкişafının кlassiк nümunəsini Yaponiya təcrübəsində görməк olar. Yaponlar öz dövlət-hüquq

institutlarını yaradanda əvvəl Çin mədəniyyətinə, dövlətçiliyinə və hüququna müraciət etmiş, XIX əsrin ikinci yarısından başlayaraq qərb sivilizasiyasına – Almaniya, Fransa, Hollandiyaya, İkinci dünya müharibəsindən sonra isə istiqaməti ABŞ və İngiltərəyə doğru dəyişmişlər. Bu ölkələrin hüquq terminləri ekvivalent yapon terminlərinə keçirilir. İmperator Universitetində fransız, alman, ingilis hüquq kafedraları yaradılır. S.Xodzima 1887-ci ildə «İngilis, fransız və alman hüququnun müqayisəli tədqiqatı» əsərini yazır.

İkinci dünya müharibəsindən sonra Yaponiyada dövlətçilik Amerika təsiri ilə formalaşır. 1946-cı ildə yeni Konstitusiya, 1947-ci ildə «Dövlət ümumi vəzifəli şəxslər haqqında» və digər qanunlar qəbul edilir. Bununla da, məmurluq aparatı haqda İmperator reskipləri ləğv edilir və dövlət qulluğu Amerika nümunəsinə uyğun konstitusiya səviyyəsində rəsmiləşdirilir. Avropanın kontinental hüquq təsiri altında yaranan Yaponiyanın hüquq sisteminin Amerika hüquq sistemi sınağına keçilir. Köhnə və yeni sistem arasında uyğunsuzluğu ləğv etmək, bir yerdə işləyən vahid sistemə inteqrasiya etmək üçün Amerika dövlətçiliyinin öyrənilməsinə başlanılır. Yaponiyaya çoxsaylı Amerika hüquqşünasları gəlir, digər tərəfə isə yapon alimləri və tələbələri təhsil almağa göndərilir. Bununla da, fransız və alman hüququnun rolunu Amerika hüququ oynamağa başlayır. 1962-ci ildə Yaponiya, Fransa, Amerika, İtaliya, Böyük Britaniya, Belçika, Kanada, İspaniya, Yunanıstan və İsveçrə hüquq mütəxəssislərinin iştirakı ilə Yaponiyada ikicildlik «Müasir müqayisəli hüquq problemləri» kitabı nəşr olunur.

Sosialist dövlət və hüququnun meydana gəlməsi ilə hüquq ailəsində ingilis-sakson və kontinentalla yanaşı sosialist sisteminin daxil olması vəziyyətin köklü dəyişilməsinə səbəb olur. Mahiyyətcə müxtəlif təzahürlərin müqayisəsini şərtləndirən problemlər yaranır və prinsipial yeni düşüncə formalaşır. Birinci dünya müharibəsi ərəfəsində sosialist sistemi yaranana qədər dünya durumundakı təkqütbçülük şəraitində bu gün üçün xarakterik olan yeni ideyalar meydana gəlir. İngiltərə, ABŞ, Fransa və Almaniyanın hegemonluğu ilə «Avropa Birləşmiş Ştatları», «Dünya dövləti», «Dünya hüququ»nun yaranması ideyası ön plana keçirilir. Sivil ölkələrin birləşməsi ideyasının təsiri ilə ən iri beynəlxalq təşkilat – Milli Liqa yaradılır (2, 33). O dövrdə dünyada ilk sosialist sisteminin yaranması qeyd olunan ideyaların həyata keçirilməsinin qarşısını alır. Sosialist dövlət və hüququ qərb komparativislərinin öyrənmək obyektinə çevrilir. İlk dövrdə bu məqsədlə institutlar yaradılır. Sosialist dövlətçiliyi sisteminin burjuaziya sistemi, yəni müqayisənin xüsusi üsulu – ziddiyyətlik meydana gəlir. Ziddiyyətlik – sosialist və burjuaziya dövlət institutları arasında neqativ, ziddiyyətli hallar tapmağa yönəldilir.

Sosialist cəmiyyətinin yaranması ilə keçmiş Çar Rusiyasının və qabaqcıl kapitalist dövlətlərinin dövlətçilik modelləri inkar edilir. Hakimiyyət bir orqanda - Sovetlərdə cəmləşdirilir və demokratiyanın atributu sayılan hakimiyyətlərin bölgüsü prinsipindən və hüquqi dövlət ideyasından imtina olunur. Dövlət qulluğu, məmurluq, bürokratik qulluq terminləri neqativ aspektdə baxılaraq leksikona daxil edilmir, «parlamentarizm» və orta sinif – burjuaziya qəbul edilmir, qeyri-formal olaraq dövlət, dövlət aparatı «proletar diktaturası» ilə əvəz olunur. Dövlətin yaranması haqqında müqavilə nəzəriyyəsi qəbul edilmir, dövlətə «fəhlə diktaturası» formasında bir sinfin başqa sinif üzərində hökmranlığı, əzmək aləti, zor maşını kimi baxılır.

Dövlətçiliyin tərkib hissəsi olan, dövlət qulluğu, peşəkar məmurluq olmadan dövləti idarə etməyin mümkün olmadığını anlayan İ.Stalin (hələ Lenin sağ ikən) XII Partiya qurultayında (21 mart 1922) ilk dəfə **kadr** (fr-şəxsi heyət) ifadəsini ortaya atır, qurultayın qərarında isə rəhbər **kadrların seçilməsi və hazırlanması** ön plana keçirilir. Bununla da, İ.Stalin Çar Rusiyasında mövcud olan məmurluğu, bürokratiyanın Çin modelini başqa adla, başqa qiyafədə «kadrlar hər şeyi həll edir» şüarı altında dövləti idarə edən «**partiya kadr nomeklaturası**» sistemini yaradır. SSRİ-nin 70 illik fəaliyyəti dövründə kəşf olunmuş sosialist dövlətçilik və «demokratiya» institutları, o cümlədən partiya nomeklaturası deformasiyaya uğrayır və Sovetlər İttifaqının dağılması və sosialist düşərgəsinin iflası ilə nəticələnir.

Qeyd etmək lazımdır ki, Sovetlər İttifaqında dövlət qulluğu partiya-kadr nomeklaturası kimi yalnız sistem daxilində, mərkəzdən qəbul edilən qərar və modellərin təkrarlanması ilə həyata keçirilirdi. Ulu öndər Heydər Əliyevin göstərdiyi kimi «əgər Azərbaycan əvvəllər Sovetlər İttifaqı tərkibində dünya təcrübəsindən demək olar ki, tamamilə təcrid olunmuşdursa, biz ancaq icad etdiyimiz formalardan istifadə edirdiksə, indi dünya təcrübəsindən istifadə etməliyik (1, 168).

Sosialist sisteminin süqutu, Azərbaycanın müstəqillik qazanması dövlətçiliyə yeni kontekstdən baxılmasını və inkişaf etmiş demokratik ölkələrini müasir modellərinin öyrənib, müqayisə etmək və milli xüsusiyyətlər və reallıq nəzərə alınmaqla yeni dövlət qulluq institutunun yaradılmasını tələb edirdi.

Dövlət təcrübəsi göstərir ki, hər bir dövlət öz müasir dövlətçiliyini, o cümldən, dövlət qulluğunu müəyyən bir tarixi təməl üzərində və ya hansısa «nümunəvi model» əsasında formalaşdırır. Məsələn, Çar Rusiyasının iki yüz ildən artıq dövlət qulluğunun hüquqi mənbəyi olan I Pyotrun «Dərəcələr haqqında Tabeli» (1722) İngiltərənin, Fransanın, Hollandiyanın, Danimarkanın, Prussiyanın qanunvericilik təcrübəsi bazasında (12, 15); Almaniyanın müasir dövlət qulluğu I Vilhelm tərəfindən sadiqlik və şəxsi sədaqət prinsipi əsasında yaradılmış Prussiya məmurluğu üzərində; Hollandiyanın dövlət qulluğu İsveçrə, Böyük Britaniya, ABŞ ideyaları əsasında; Fransanın məmurluğu Napoleonun modeli üzərində formalaşmışdır. ABŞ-da «Mülkü qulluq haqqında» Pendlton qanunu (1883) əsasında yaradılmış «Meri sistem» (ləyaqət sistemi) prinsipləri əksər demokratik ölkələrin dövlət qulluğuna daxil edilmişdir.

Qeyd etmək lazımdır ki, inkişaf etmiş xarici ölkələrin qanunvericiliklərində dövlət qulluğu anlayışına tərif verilməmiş və dövlət qulluğu geniş aspektdə baxılmışdır, yəni dövlət orqanlarında, müəssisə və təşkilatlarında çalışanlar və ya büdcədən maliyyələşənlər bu tərkibə daxil edilir. Bununla yanaşı, dövlət qulluğu daxilində differensasiya aparılır – məmurlar, qulluqçular və yardımçı işçi və fəhlə kateqoriyaları fərqləndirilir. Respublika idarəçilik formasının genişlənməsi ilə dövlətə qulluqdan cəmiyyətə qulluğa – kütləvi qulluğa keçirilir. XX əsrin sonlarında kütləvi qulluğun menecment modeli inkişaf edir. Mülki qulluq anlayışı geniş tətbiq olunmağa başlayır. Məsələn, RF dövlət qulluğunun əsasları haqqında qanunda (1995) dövlət qulluğunun dövlətə və cəmiyyətə yox, ali dövlət vəzifəsi tutan (A kateqoriya vəzifələri) şəxslərin qulluğu mahiyyətini daşıyırdı. «Dövlət mülki qulluq haqqında» 24 iyul 2004-cü ildə qəbul olunmuş qanunda mülki qulluq daha geniş aspektdə dövlət orqanlarının səlahiyyətlərinin icrasının təmin olunmasına yönəldilmiş

fəaliyyət кimi baxılır.

Azərbaycan müstəqilliк əldə etdiкdən sonra siyasi, iqtisadi və hüquq sistemində islahatlar aparıldı. Məlumdur кi, islahatlar, ilк növbədə, dövlət mexanizminin tərкib hissəsi olan dövlət aparatında, dövlət idarəetmə sistemində və onlarla üzvi bağlı olan dövlət qulluğu sahəsində aparılır. Dövlət aparatı və dövlət idarəetmə sisteminin dinamiк vəziyyətə gətirilməsi dövlət qulluqçuları vasitəsilə edilir. Odur кi, dövlət qulluğu sahəsində islahatlar aparmaq, onu təкmilləşdirməк bütün dövlətlərdə əsas məsələlərdən biri кimi diqqətdə saxlanılır. «Dünya təcrübəsi göstərir кi, müharibədən sonra Avstriya, İtaliya, Almaniya, Fransa, Finlandiya birinci və operativ olaraq dövlət qulluğu sahəsində islahatlar aparmışlar. Məsələn, 1946-47-ci illərdə Almaniyada və Avropanın qalan ölкələrində dövlət qulluğu haqqında çərçivə qanunlar qəbul edilmişdir.

Maraqlı hal ondadır кi, vaxtilə sosialist sistemi yarananda imtina olunmuş təzahür və institutlar – haкimiyyət bölgüsü, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, dövlət qulluğu, bazar iqtisadiyyatına кeçid və s. prinsiplər dövlət müstəqilliyindən sonra qəbul edilmiş və кapitalizm dünyasına inteqrasiya olunmaqla formalaşmışdır. Azərbaycan Respubliкasında yeni кonstitusiya qəbul olunmuş, Dövlət qulluqçularının hazırlığı, təhsilinin artırılması üçün 1994-cü ildə AR Prezidenti yanında İdarəçiliк Aкademiyası yaradılmış, «Dövlət qulluğu haqqında» AR Qanunu (2000) qəbul edilmiş, dövlət qulluğu institutu formalaşmışdır. Dövlət qulluğunun leqallaşması ona yeni nəfəs və dinamizm vermiş, bu günə qədər Dövlət qulluğu haqqında qanuna 27 əlavə və dəyişiкliк edilməкlə təкmilləşdirilmişdir.

Müqayisəli təhlil nəticəsində Azərbaycan dövlət qulluğu xarici ölкələrin analoji institutlarından aşağıdaкı elementlər qəbul etmişdir; Siyasətin idarəetmədən ayrılmasına uyğun siyasi elita və dövlət qulluğu ayrılır; dövlət qulluğuna qəbulda açıq müsabiqə imtahanlarının aparılması tətbiq edilir; dövlət qulluqçusunun etiк davranış qaydaları haqqında qanun qəbul edilir; qulluq кaryerası (qulluq кeçmə prosesi) tətbiq olunur; dövlət qulluğu idarəetmə Şurası və AR Prezidenti yanında Dövlət qulluğu məsələləri üzrə Komissiya yaradılır.

Yeкunda qeyd etməк lazımdır кi, dövlət qulluğunun təкmilləşdirilməsində müqayisəli tədqiqat metodu ən təsirli metodlardan biri olaraq qalır.

## ƏDƏBİYYAT


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Birinci кitab. Baкı: 1997, 608 s.
2. Тилле А.А. Социалистическое сравнительное правоведение. М.: Юрид. лит.-ра, 1978, 208 с.
3. Чиркин В.Е. Сравнительное государствоведение: метод исследования, отрасль науки, учебная дисциплина // Государство и право, 1990, №3, с. 39-48.
4. Сабо И. Теоретические проблемы сравнительного правоведения. В кн.: Сравнительное правоведение / Под.ред. Туманова В.Ф. М.: Прогресс, 1978, 230 с.
5. Таранов П. Сорока пяти поколений. М.: Аст, 1999, 356 с.
6. Маркс К. и Энгельс Ф. Соч. т.20, с. 218-223.
7. Надо И. Сравнительное правоведение в Японии: прошлое и настоящее. В кн.: Очерк сравнительного правоведения. Под.ред Туманова В.А. М.: Наука, 1981, с. 229-255.
8. Джексон Грейсон младший, Карла Делл. Американский менеджмент на пороге XXI века. М.: Экономика, 1991, 319 с.
9. Захидов В. Три титана. Ташкент: Фан, 1973, 88 с.

10. Карванье Ж. Юридическая социология (Пер. с француз). М.: 1986, 282 с.
11. Затонский В.А. Государство и личность в системе государственности // Государство и право. 2007, №10, с. 5-12.
12. Атаманчук Г.В. Сущность государственной службы: История, теория, закон, практика. М.: РАГС, 2008, 312 с.
13. Сравнительное прововедение. Сборник статей / Под ред. Туманова В.А. М.: Прогресс, 1978, 254 с.

## СРАВНИТЕЛЬНЫЙ МЕТОД В ИССЛЕДОВАНИИ ГОСУДАРСТВЕННОЙ СЛУЖБЫ: ТЕОРЕТИЧЕСКИЕ, ИСТОРИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ АСПЕКТЫ

**А.Х.РЗАЕВ**

**РЕЗЮМЕ**

В статье сравнительный метод рассматривается, как «установление степени различия или сходство сравнительных институтов, явлений и предметов. В публикации основное внимание уделяется на классификации, теоретико-методологические, исторические аспекты сравнительного метода исследовании. При исследовании государственной службы сравнительным методом обращаемся к опыту основных капиталистических стран. Анализируется богатый опыт накопленный сравнительным правоведением в Японии.

## THE COMPARATIVE METHOD IN RESEARCHING STATE SERVICE: THEORETICAL, HISTORICAL AND PRACTICAL ASPECTS

**A.H.RZAYEV**

**SUMMARY**

The article studies the comparative method as the establishment of dictinction and similarity degrees of comparative institutes, manifestations and subjects. The publication mostly illustrates the classification of theoretical, methodological, historical aspects of the comparative method. Investigating state service through the comparative method the author applies to the practice of capitalist countries. The practice of comparative science of law in Japan is analyzed by the author.